# Aqrar sferanın strukturu

ASK aqrar sənaye inteqrasiyası nəticəsində xalq təsərrüfatı miqyasında formalardan ən iri sahələrarası idarəetmə obyekti kimi fəaliyyət göstərir. Aqrar sənaye inteqrasiyasının obyektiv əsasını məhsuldar qüvvələrin yüksək səviyyəsi, ictimai əmək bölgüsünün inkişafı, kənd təsərrüfatı iqtisadiyyatının digər sahələri ilə genişlənən qarşılıqlı əlaqəsi təşkil edir. Aqrar sənaye inteqrasiyası bir tərəfdən ictimai istehsalda ixtisaslaşmanın nəticəsi kimi sahələrin ayrılaraq müstəqil fəaliyyət göstərməsini əks etdirirsə, digər tərəfdən sahələrin qarşılışlı əlaqəsinin zəruriliyini səciyyələndirir. Bu qayda ilə aqrar-sənaye inteqrasiyası xalq təsərrüfatının bir-biri ilə qarşılıqlı əlaqədar olan, lakin müstəqil fəaliyyət göstərən müxtəlif sahələrinin dialektik vəhdəti kimi çıxış edir. Məsələn, mineral gübrələr istehsalı sənayesi, mikrobiologiya sənayesi, heyvandarlıq üçün maşınqayırma sənayesi və s. sahələr ayrı-ayrı funksiyaları icra edərək (zaman və məkan cəhətdən əlahidləşərək) müstəqil xalq təsərrüfatı sahəsi kimi fəaliyyət göstərir. Digər tərəfdən bu sahələr ilə kənd təsərrüfatının başqa sahələri arasında qarşılıqlı məhsul mübadiləsi zəmnində bir-birini tamamlayan, başa çatdıran kooperasiyalaşma prosesi gedir. Bu proses kənd təsərrüfatı məhsullarının istehsalı, ilkin emalı, daşınması, saxlanması və satılması ilə məşğul olan, habelə kənd təsərrüfatına istehsal xidməti göstərən sənaye sahələrinin məcmusu ilə tamamlayaraq vahid aqrar sənaye kompleksi kimi fəaliyyət göstərir.

ASK-nı təşkil edən xalq təsərrüfatı sahələrinin əksəriyyəti kənd təsərrüfatının ətrafında qarşılıqlı istehsal iqtisadi əlaqələrə girərək cəmləşir və öz fəaliyyətini bilavasitə kənd təsərrüfatının tələblərinə uyğun formada qurmağa çalışır. Bu əlaqələr bir qayda olaraq birtərəfli deyil, qarşılıqlı və müəyyən nisbətdədir. Kənd təsərrüfatı bu əlaqələrdə aparıcı sahə kimi ASK-nın bütün vəzifələrini özü ilə və bir